## “ASAN Finans” sistemi vasitəsi ilə məlumatların alınmasına dair

## Razılıq ərizəsi

I. Bu sənədi imzalamaqla, **bank xidmətlərinin göstərilməsi/bank əməliyyatlarının həyata keçirilməsi məqsədilə** “ASAN Finans” elektron portalı vasitəsilə şəxsiyyətimi təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi/müvəqqəti yaşayış icazəsi/şəxsiyyəti təsdiq edən digər sənəd) üzrə müəyyən olunan məlumatların (sənədin FİN-i, seriya və nömrəsi, ad, soyad, ata adı, qeydiyyat ünvanı, sənədi verən orqanın adı, sənədin verilmə və bitmə tarixi, cins, doğum tarixi, doğum yeri, ailə vəziyyəti, vətəndaşlığı), iş yerim üzrə müəyyən olunan məlumatların (o cümlədən iş yeri, vəzifə, əmək müqaviləsinin tipi (müddətli və ya müddətsiz), əmək müqaviləsinin bağlanma və bitmə tarixi, iş yerinin növü (əsas və ya əvəzçilik üzrə), əmək haqqının məbləği), habelə pensiya, müavinət, təqaüd və kompensasiya ilə bağlı məlumatlarımın (pensiyanın, sosial müavinətin, təqaüdün, digər sosial ödənişlərin (kompensasiya, ünvanlı sosial yardım) növü, məbləği, başlanma və bitmə tarixləri, əlilliyə görə pensiya, sosial müavinət və ya təqaüd alan şəxsin əlilliyinin səbəbi (diaqnozları), müddəti) və s. müvafiq məqsədlətələb olunan digər bütün zəruri məlumatlarımın (telefon nömrəsi və elektron ünvanı, yaşadığı və olduğu yer, ixtisası, şəkli və s.) “**ABB” ASC-yə** (bundan sonra **“ABB”**) təqdim olunmasına dair razılıq verirəm.

II. Bu sənədlə həmçinin, mənə məxsus əmlak/vəsait barədə məlumatların ABB tərəfindən digər kredit təşkilatlarından əldə edilməsinə dair razılıq verirəm.

III. Bu sənəd əsasında ABB tərəfindən müxtəlif informasiya ehtiyatlarından əldə edilən, habelə tərəfimdən ABB-yə təqdim edilən bütün məlumatlarımın **əlavə razılıq alınmadan** ABB tərəfindən analitika, monitorinq, marketinq, müştəriyə göstərilən əlavə xidmətlər (o cümlədən də konsiyerj xidmətləri) və qanunvericilikdə qadağan olunmamış digər məqsədlər üçün təhlil və emal edilməsinə, işlənilməsinə, ümumiləşdirilməsinə, özünün törəmə müəssisələrinə və digər partnyorlarına (müqavilə bağladığı şəxslərə) təqdim edilməsinə, transsərhəd qaydada ötürülməsinə və s. qanunvericiliklə qadağan edilməmiş digər tədbirlərin görülməsinədair razılıq verirəm.

IV. Bu sənədlə müxtəlif məhsullara dair kampaniya və reklam xarakterli məlumatların (SMS, bildiriş, e-mail və s. elektron formada) ABB tərəfindən mənə göndərilməsinə razılıq verirəm.

V. Bu sənədi imzalamaqla, mənim və ya ABB-nin təqsiri olmadan digər şəxslər tərəfindən mənə aid bütün məlumatların (fərdi məlumatlar və bank sirri məlumatları da daxil olmaqla) üçüncü şəxslərə təqdim edilməsi nəticəsində dəymiş (dəyə biləcək) zərərə, eləcə də bütün növ maliyyə itkilərinə görə bütün riskləri və məsuliyyəti öz üzərimə götürdüyümü təsdiq edirəm.

VI. Bu razılıq 10 il müddətinə, lakin müvafiq bank xidmətindən istifadə müddətindən az olmamaqla qüvvədədir. Razılığın **yazılı müraciətim** əsasında vaxtından əvvəl ləğv edilə bilməsi barədə ABB tərəfindən məlumatlandırıldım.

VII. Bu razılıq əsasında əldə edilmiş məlumatların saxlanma müddəti müvafiq xidmətdən istifadə/bank əməliyyatlarının həyata keçirilməsi müddəti ilə eynidir və həmin xidmətə/əmməliyyata xitam verildikdən sonra, eləcə də razılıq verən şəxsin ölümü halında həmin məlumatlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada arxivləşdirilsin (ləğv edilsin).